

# İlham Əliyevin şərtləri

## Sülhün yeganə təminatıdır

**Hələ 3 il əvvəl Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə Qarabağ problemi birdəfəlik həll olundu. Ermənistanın və dünya erməniliyinin Qarabağla bağlı saxta iddiaları, status tələbləri 44 günlük savaşda darmadağın edildi. Sentyabrın 19-20-də isə Qarabağdakı separatçı rejimin varlığına son qoyuldu.**

Artıq separatçı rejim yoxdur və Qarabağda Azərbaycan dövlətinin hakimiyyəti tam təmin edilib. Qarabağda qalan ermənilər də tədricən Azərbaycan vətəndaşlığını almaq və reinteqrasiya prosesinə qoşulmaq üçün Dövlət Miqrasiya Xidmətinə müraciət edirlər.

Qarabağdakı qeyri-qanuni rejimin, separatçılığın ləğvi regionda sülhə gedən yolda əsas maneələrdən birini aradan qaldırdı. Əslində, Qarabağla bağlı Ermənistanın iddiaları sülhün qarşısını almaq üçün ortaya atılan süni arqumentlər idi. Çünki Azərbaycan dövləti hər zaman bəyan edirdi ki, Qarabağla bağlı istənilən məsələ dövlətimizin daxili işidir və bunu hansısa tərəflə müzakirə etmir. Antiterror tədbirlərindən sonra isə Ermənistanın Qarabağla bağlı irəli sürdüyü bütün saxta iddialara birdəfəlik son qoyuldu.

Bu baxımdan son hadisələrdən sonra gözlənilən odur ki, Ermənistanla Azərbaycan arasında sülh danışıqları yeni müstəviyə qədəm qoyacaq. Sentyabrın 20-də Prezident İlham Əliyev xalqa müraciətində bununla bağlı demişdi: "Hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr eyni zamanda Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək".

Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyi aydın və dəqiqdir. Bu məsələdə Azərbaycanın mövqeləri beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır, sülhün əldə olunmasına xidmət edir. Azərbaycanın bu istiqamətdə irəli sürdüyü şərtlər elə Ermənistanın özü tərəfindən də qəbul edilir. Lakin ötən dövrdə Ermənistanın prosesləri uzatması və üzərinə düşən öhdəlikləri yerinə yetirməməsi səbəbindən münasibətlərin normallaşdırılması istiqamətində nəticə əldə edilməyib.

Əlbəttə, Ermənistan bu məsələdə özü qərar qəbul etmir və xüsusən Fransanın pozuculuq fəaliyyəti sülhə ciddi əngəllər yaradır. Son antiterror tədbirlərindən sonra Fransanın Azərbaycana qarşı qərəzli münasibətini daha da gücləndirməsi isə sülh prosesinə böyük zərbə vurur. Bu ölkənin Ermənistanı hər vəchlə silahlandırmağa çalışması, onu yenidən təcavüzə və hərbi avantüraya cəlb etməsi sülhə ən böyük maneədir.

Təbii ki, Fransanın bu cəhdləri hələ Vətən müharibəsinə qədər 30 ilə yaxın Ermənistanın işğal siyasətinə verdiyi dəstək kimi uğursuzluğa düçar olacaq. Ona görə Fransa indi Ermənistana yardım etmək istəyirsə, onu sülh sazişinin imzalanmasına sövq etməlidir.

Vətən müharibəsi və ondan sonrakı dövrdə Azərbaycan öz milli maraqlarını qətiyyətlə təmin edib. Azərbaycan eyni zamanda regionda iqtisadi, tranzit və tranzit imkanlar baxımından ən üstün dövlətdir. Yerində sayan və geri gedən isə yalnız Ermənistandır. Bu baxımdan sülhə daha çox ehtiyacı olan da Ermənistandır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri isə sülhün yeganə təminatıdır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 6 oktyabr.- S.7.